## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## ƏMR

**25 sentyabr 2026-cı il** **10-1/3-1-212/2026**

### “Vaqifoğlu Audit” MMC, “T.A.T GLOBAL AUDIT” MMC və sərbəst auditor Paşayev Əmrah Mürvət oğlu barəsində intizam və tənbeh tədbirlərinin görülməsinə dair

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsindən bələdiyyələrdə auditor xidmətlərinin göstərilməsi zamanı yol verilmiş nöqsanlar barədə daxil olmuş müraciət əsasında aparılmış araşdırma zamanı “Vaqifoğlu Audit” MMC və “T.A.T GLOBAL AUDIT” MMC tərəfindən plandankənar keyfiyyətə kənar nəzarət üzrə monitorinqlərin aparılması üçün tələb olunan auditor dosyelərinin və digər sənədlərin Azərbaycan Respublikasının Auditorlar Palatasına (bundan sonra – Palata) təqdim edilmədiyi müəyyən olunmuşdur.

Həmçinin sərbəst auditor Paşayev Əmrah Mürvət oğlunun göstərdiyi auditor xidmətlərinin keyfiyyətinə kənar nəzarət üzrə monitorinqin 2026-cı il 12 may tarixli hesabatında onun fəaliyyəti “2” – qeyri-qənaətbəxş qiymətləndirilmişdir.

Araşdırmanın və monitorinqin nəticələri üzrə müvafiq tədbirlərin görülməsi, auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və müəyyən edilmiş nöqsanların təkrarlanmasının qarşısının alınması məqsədilə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnaməni (bundan sonra – Əsasnamə) və “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”ı rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Palatanın Haqsız rəqabətə qarşı mübarizə, keyfiyyətə kənar nəzarət və beynəlxalq əlaqələr idarəsinə (R.Cəfərli) tapşırılsın ki, “Vaqifoğlu Audit” MMC (direktor – Quliyev Elçin Vaqif oğlu) və “T.A.T GLOBAL AUDİT” MMC (direktor – Talıbov Aslan Tarıyel oğlu) fəaliyyətlərini bərpa etdikləri tarixdən etibarən onların fəaliyyətlərinin növbədənkənar risk əsaslı monitorinqlərə cəlb edilməsi və tələb olunan auditor dosyelərinin və digər sənədlərin təqdim olunması təmin edilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/wyLiCcuWa0PvWxy0rgqGYCgPlXfh7tPlCTVfLwtAt3o%3D

2. Bələdiyyələrdə auditor xidmətlərinin göstərilməsi zamanı nöqsanlara yol verdiyinə görə Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında” Əsasnamənin 6-cı maddəsinin 16-cı “Peşə mənsubları/üzvləri tərəfindən bilmədən, lazımi diqqət və səy göstərmədən qanunlara, qaydalara və bəyan edilmiş norma və standartlara zidd olan hesabatların və rəylərin imzalanması, yoxlanılması və təsdiq edilməsi” bəndinə uyğun olaraq sərbəst auditor Paşayev Əmrah Mürvət oğluna şəxsi işinə qeyd edilməklə töhmət elan edilsin və həmin Əsasnamənin 10-cu maddəsinin 2-ci “Peşə mənsubları/üzvləri auditin keyfiyyətinə nəzarət üzrə monitorinqin nəticələrinə görə “2” aldığı halda” bəndinə əsasən ödənişli icbari ixtisasartırma kursuna cəlb edilsin.

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov), Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) və Daxili nəzarət və komplayens şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsinlər.

4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/wyLiCcuWa0PvWxy0rgqGYCgPlXfh7tPlCTVfLwtAt3o%3D